**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLİ MƏCİD OĞLU XEİRİ**

# XI – XVII ƏSRLƏR QƏZVİN VİLAYƏTİNİN TÜRBƏLƏRİ

**İxtisas: 6401.01-** «Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası»

Memarlıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2015**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq konstruksiyaları və abidələrin bərpası" kafedrasında yerinə yetirilmişdir.

***Elmi rəhbər:***
Memarlıq üzrə elmlər doktoru, professor
**Vilayət Hidayət oğlu Kərimov**

***Rəsmi məsləhətçı:***
Memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Zahidə Gülməmməd qızı Məmmədova**

***Rəsmi opponentlər:***
Memarlıq üzrə elmlər doktoru, professor
**Nərgiz Cavad qızı Abdullayeva**
Memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Rizvan Mustafa oğlu Bayramov**

***Aparıcı təşkilat:*** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının **"Memarlıq" kafedrası**

Müdafiə "27" May 2015-ci il tarixində saat "11"-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.041 Dissertasiya Şurasının memarlıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təşkil olunmuş iclasında keçiriləcək.

Ünvan: Az 1073, Bakı şəhəri, A.Sultanova küç., 11, AzMİU, korpus 1, III mərtəbə, aud 317.

Dissertasiya işi ilə AzMİU-nun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"_____________ 2015-ci il tarixində göndərilmişdir.

**FD 02.041 Dissertasiya**
**Şurasının elmi katibi,**
**memarlıq üzrə fəlsəfə**
**doktoru dosent**
**S.Ə.AXUNDOVA**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Məsələnin indiki vəziyyəti və tədqiqat səviyyəsi.** İran müxtəlif mədəniyyətlərin qovuşduğu məkan və dünyanın ilk və ən böyük sivilizasiya ocaqlarındandır. İranlı və xarici tədqiqatçıların-İran yaylasında pərakəndə şəkildə olan və hələ də dəqiq və sistemli şəkildə toplanmamış - İranın mədəni irsi sahəsində elmi və akademik mənbələri daha qısa zamanda əldə etməkdə çətinlik çəkmələrini gördükdə və eyni zamanda, qədim təsvir mənbələrinin zəif olmasını və ən yaxşı halda keçmiş on illiklərə aid ağ-qara fotolar və slaydların müasir olmamasını, nəzərə aldıqda, bütün bu dəyərli mirası yeni metodla və daha yaxşı keyfiyyətdə özündə cəmləşdirən kamil arxivin yoxluğu hiss olunur. Bununla da, İran memarlığı ilə maraqlananlar, İranın fəxri olan bu abidələri daha rahat şəkildə araşdıra bilmələrinə imkan yaratmış olunur.

İnformasiya əsrində mədəni mirasımızı dünyaya tanıtmaq zəruriyyətini qəbul ediriksə, bu istiqamətdə müasir mənbələrin çap edilməsi ilə İranın tarix və memarlığının akademik fəzasını zənginləşdirmək kimi nəticələrin əldə edilməsinə ehtiyac vardır. Dünyanın diqqətini əvvəlkindən də artıq şəkildə İran abidələrinin tanıdılması və təbliğinə cəlb edib və sonunda, bu təqdiqat işinin digər hədəflərindən olan turist cəlb etməyə çox kömək edəcəkdir. Həmçinin, bu kompleksləri turizm sənayesinin gəlirləri ilə təmir və mühafizəsi bu sahədə dövlətin üzərinə düşən maliyyə çətinliklərini azaltmaq olar.

İranın Qəzvin vilayətinin abidələrinin planlı şəkildə öyrənilməsinə sözü gedən regionun memarlığının tədqiqi üçün kifayət qədər baza olduğu təkan verir. Şəhər mühitinin ən müxtəlif elementlərində çox funksiyalılığın varlığı memarlıq irsinin qorunması sahəsində ən əsas prinsiplərdən biridir. Əgər ədəbiyyatlara müraciət etsək, İran memarlıq abidələrinin xüsusi qolunu təşkil edən dini tikililərin, o cümlədən türbələrin tədqiqatına toxunan kifayət qədər Azərbaycan, rus və digər xarici ölkə müəlliflərinin əsərlərinin tapmaq olar. Lakin bu araşdırmalar Azərbaycanın ayrı-ayrı regionlarının və ya müəyyən xronoloji dövrün türbələrinin tədqiqinə həsr olumuşdur.

XX əsrdə M.Useynov, L.Bretanitski, Ə.V.Salamzadə, K.Məmmədzadə, Q.Əlizadə, Ş.Fətullayev, D.Axundov kimi Azərbaycanın tədqiqatçı alimləri öz əsərlərində Azərbaycan memarlıq tarixi və nəzəriyyəsi sahəsində əldə edilmiş nəticələri əks etdirmişdir. Bu sahədə C.Qiyasi, G.Məmmədova, R.Əmənzadə, V.Kərimov, V.Muradov, S.Hacıyeva və b. öz sözünü demiş tədqiqatçılardandır. Həmin tədqiqatçıların elmi əsərlərində əsasən Şimali Azərbaycanın dini tikililərinin, o cümlədən xatirə tikililərinin plan-məkan strukturu, formalaşma prinsipləri, onların yaranmasına təkan vermiş sosial

amillər, lokal memarlıq ənənələrinin varlığı geniş əks edilmişdir. Xarici ölkə tədqiqatçılarından isə Arthur Upham Pope, Andre Godard, Piro Saint Paulzi, Roman Ghirshman, M.İ.Dyakonov, Loui Vandenberghe, Malcolm College, Edit Prada, Michael Roaf, Heidemarie Koch və başqalarının elmi axtarışlarını xüsusi qeyd etmək lazımdır. Qəzvin vilayətinin memarlıq abidələrinin araşdırılması İran alimləri Məhəmmədzadə Məhəmməd Nadir, Oqabi Məhəmməd Mehdi, Vərcavənd Pərviz tərəfindən aparılmışdır.

**Mövzunun aktuallığı.** İranın incəsənət və memarlıq tarixini araşdıran keçmiş tədqiqatçı alimlərin, arxeoloq və restavratorların arasıkəsilməz və faydalı səylərinə rəğmən, keçmişdəki təsvir mənbələrinin qədim texnologiyası, qədim ağ-qara şəkillərin və slaydların günügündən sıradan çıxması, müxtəlif şəhərlərin arxivlərində pərakəndə şəkildə olan keçmiş onilliklərə aid mövcüd qədim və AutoCAD olmayan xəritələr və eləcə də, təbii fəlakətlərin və hətta mənfəət tələb edən şəxslərin fərqli yanaşmaları üzündən tarixi abidələrin dağıdılması, bəzi bina və tarixi abidələrin simasının təhrif edilməsinə keçmiş vəziyyətinə nisbətən dəyişilməsinə səbəb olmuşdur.

Görülmüş işlərin aktuallığı Qəzvin vilayətinin xatirə tikililərinin aparılmış kompleks tədqiqatından - ilk növbədə abidələrin sistemləşdiril-məsi, onların indiki vəziyyətinin və dağılma səviyyəsinin tədqiqi, qorunması və gələcək istifadəsi üçün tədbirlərin nəzərə alınmasından ibarətdir.

**Dissertasiyanın məqsədi.** İranın Qəzvin vilayətinin mövcud olan xatirə tikililərinin memarlıq və tarixi baxımdan inkişaf mərhələlərini sistemli şəkildə təhlil etməkdən ibarətdir.

Qəzvinin (məqbərələri) xatirə tikililəri haqqında olan tədqiqat işi, bu araşdırma və tədqiqatda - həm nəzəri, eyni zamanda praktiki - aparılan fəaliyyətlərin təkmilləşdirilməsi istiqamətindəki çalışmaların və səylərin davamıdır.

Əldə edilmiş nəticələrin bir arxivdə toplanması və xatirə tikililərinin növlərinin planı və bərpası üçün İrana məxsus üslubda münasib bir nümunə hazırlanması keçmiş tədqiqatçıların səylərini də kamilləşdirməyə şərait yarada bilər.

Dissertasiyada aşağıdakı məsələlər həllini tapmışdır:

- Qəzvin vilayətinin xatirə tikililərinin memarlığının formalaşmasına tarixi – coğrafi, siyasi - iqtisadi amillərin təsiri;
- Qəzvin vilayətinin xatirə tikililərinin əsas inkişaf mərhələlərinin müəyyən olunması;
- Regionun xatirə memarlığının genetik köklərinin və inkişaf yollarının təyin ediməsi;



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИАЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

*Направахрукописи*

**АЛИ МЕДЖИД ОГЛУ ХЕИРИ**

**МАВЗОЛЕИ ОБЛАСТИ КАЗВИН XI – XVII веков**

**Специальность: 6401.01** - «Теория и историяархитектуры,реставрация и реконструкцияпамятников»

# АВТОРЕФЕРАТ

диссертациинасоисканиеучёнойстепени докторафилософиипоархитектуре

**БАКУ – 2015**

**Kağız formatı 60x84, 1/16**
**Fiziki çap vərəqəsi 2,25**
**Tiraj 100**

**AZMIU-nin mətbəəsində çap olunmuşdur**



- Xatirə tikililərində formayaranmanın dini və simvolik aspektləri;
- İslam dininin İranda xatirə tikililərinin yaranması və formalaşmasına təsiri;
- İran ərazisindəki xatirə tikililərinin tipoloji təsnifatı;
- Qəzvin vilayətinin xatirə tikililərinin memarlıq-kompozisiya həlləri və tipoloji cəhətdən formalaşmasının genetik əsasları;
- Qəzvinin xatirə tikililərinin konstruktiv xüsusiyyətləri, inşaat texnikası və memarlıq dekoru və s.
- İran abidələrinin tanıdılması və təbliğinə olan diqqətin genişləndirilməsi və nəticədə turizm industriyasının inkişaf etdirilməsi və canlandırılması;
- Arxivlər üçün rəqəmsal illüstrativ materialların mərkəzləşməsi;
- Abidələrin inventarlaşdırılması və tam pasportlaşması;
- Təbii fəlakətlər və digər hadisələr səbəbindən zərər çəkmiş abidələrin sonrakı restavrasiyasında istifadə üçün bu abidələrin qeydə alınması.
- Abidələrin elmi və tarixi tədqiqatların həyata keçirilməsi üçün tanıdılması.
- Qonşu ölkələr və ölkənin digər bölgələri arasında regionun memarlıq irsinin yerinin, onların xarakterik xüsusiyyətlərinin və ümumi cəhətlərinin müəyyən edilməsi;

**İşin elmi yeniliyi** ondan ibarətdir ki, tədqiqat obyekti kimi memarlıq abidələrinin xüsusi və əhəmiyyətli tipoloji qrupu Qəzvin vilayətinin orta əsr xatirə tikililərinin inkişaf mərhələləri ilk dəfə kompleks və ardıcıl şəkildə araşdırılmışdır və "qızıl həndəsə tənasübünü" Qəzvin vilayətinin türbələrində tətbiq olunmuşdur.

**Tədqiqatın obyekti** Qəzvin vilayətinin xatirə tikililəridir. O cümlədən analogiya olaraq Şimali Azərbaycanın və Orta Asiyanın xatirə tikililərinin inşa tarixi, plan-məkan kompozisiyası və formalaşmasının oxşar və fərqli cəhətlərinin tədqiqinə diqqət yetirilir. Daha əhəmiyyətli və tanınmış abidələrlə yanaşı, tədqiqatda öz dövrünün ənənəvi memarlıq üslubunu nümayiş etdirən sıravi tikililər də araşdırılır.

**İşin metodikası** sistemli yanaşmaya, Qəzvin vilayətinin xatirə tikililərinin ardıcıl təhlilinə əsaslanaraq, arxiv sənədlərinin, elmi mənbələrin, natur tədqiqatların və fotofiksasiyanın nəticəsində əldə edilmiş məlumatların öyrənilməsidir. Tədqiqat işinin metodikası ilk öncə pərakəndə şəkildə olan məlumatların toplanması vasitəsilə həyata keçirilmişdir. Bu məlumatlar müxtəlif əyalət mərkəzlərinə səfər edib abidələrin yerləşdiyi ərazilərin qeydə alınması və xəritələrinin hazırlanması, eyni zamanda fotofiksasiyanın aparılması və baxış keçilməsi ilə əldə edilməsinə əsaslanır.

− Tarixi mənbələrdə, müxtəlifdilli elmi ədəbiyyatda, arxiv materiallarinda mövcud olan məlumatların toplanması, memarlıq tikililərinin formalaşmasına səbəb olan amillərin kompleks təhlili;

−Abidələrin natur tədqiqatlarının, memarlıq-ölçmə işlərinin və fiksasiya tədbirlərinin həyata keçirilməsi,

− Müxtəlif təyinatlı abidələrin quruluş prinsiplərinin və memarlıq-planlaşma xüsusiyyətlərinin öyrənilməsi; onların əsas kompozisiya, memarlıq-planlaşma və bədii dekorativ quruluş üsullarının sistemləşdirilməsi;

**Praktiki əhəmiyyəti.** Tədqiqatın əsas müddəalarının memarlıq abidələrinin qədim abidələrin istifadəsi istiqamətində, eyni zamanda praktiki layihə işlərində, İran abidələrinin tanıdılması və təbliğinə olan diqqətin genişləndirilməsi və nəticədə turizm industriyasının inkişaf etdirilməsi və canlandırılması, arxivlər üçün rəqəmsal illüstrativ materialların mərkəzləşməsi, abidələrin inventarlaşdırılması və tam pasportlaşması, təbii fəlakətlər və digər hadisələr səbəbindən zərər çəkmiş abidələrin sonrakı restavrasiyasında istifadə üçün bu abidələrin qeydə alınması, abidələrin elmi və tarixi tədqiqatların həyata keçirilməsi üçün tanıdılması, kataloqların nəşri üçün xüsusi əhəmiyyət daşıyır.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş, 3 fəsil, əsas nəticələr, istifadə olunmuş ədəbiyyat siyahısından (129 sayda) və illüstrativ cədvəllərdən (178 şəkil) ibarətdir.

**Aprobasiya.** Dissertasiyada toxunulan ayrı – ayrı məsələləri əks etdirən məqalələr və məruzələr Azərbaycan Memarlıq və İnşaat Universitetinin elmi əsərlərində, beynəlxalq konfraslar və digər nəşrlərdə göstərilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun əsaslandırılmasına baxılır, tədqiqatın aktuallığı, məqsədi, vəzifələri və metodları açıqlanır, nəzəri-praktiki əhəmiyyəti və elmi yeniliyi xarakterizə olunur, araşdırılan işin elmi və praktik dəyərləri şərh edilir.

**"İRANDA XATİRƏ TİKİLİLƏRİNİN MEYDANA GƏLMƏSİNİN TARİXİ - SOSİAL ŞƏRTLƏRİ VƏ GENETİK ƏSASLARI"** adlı **I FƏSİLDƏ** İran və İslam dünyasinda xatirə tikililərinin meydana gəlməsinin tərixi və sosial şərtləri və genetik əsasları işiqlandırlır və XI – XVII əsrlərdə türbə memarlığının formalaşmasına təsir edən üslublar və bu dövrdə tikilən abidələrin tipoloji analizi təqdim olunur və onların əsas xüsusiyyətləri şərh edilir.



**chapter one**. The reason of existance of cemetery monuments in the Muslim world and Iran in terms of social and history get flawless research. From 11 to 17 Century the impressive reasons of shaping mausoleum buildings is under research and Typology of cemetery buildings in the century will be analyzed and investigated also properties of each are described.

**In the Second chapter** –that is **"Qazvin –socio historical monuments from the view of architectural form and composition properties"** is the **chapter two**. The reason of existance of Qazvin's cemetery monuments from the history, geographic, politic – economic will be investigated and also uncovering impressive reasons of shaping mausoleum buildings and their architecture and composition will be discussed .

**In the third chapter** –that **"The position of Qazvin tomb monuments in Iran's Architecture"** is the **Third chapter**. Qazvin's cemetery monuments will be analyzed from the view of building properties, construction techniques and architectural decoration. In this chapter we also take a look at the position of tomb monuments of Qazvin in Iran and their type protection.

**The purpose of research:** Historical memorial buildings in Qazvin province in 11 to 17 century were one of the major roots of memorial architecture and an impressive way to recognize the architectural of Iran and its region.At the same time is a way to recognize and promote historical and memorial architectural which draws all attentions to itself.As well as archives and images can be provide a significant amount of resources in this study, monuments (memorial tomb) - tombs, shrines and monasteries (Khangah) - architectural properties and composition are in deep study.

**Scientific novelty of research** is that, The Research such as subject and purpose of the monuments architecture of Qazvin in the period of medieval are into the typology and also private individuals classification at the same time and develops Stages of growth for the first time, thorough investigation and research for the golden ratio of the cemetery buildings.

**The practical significance of the study** is that, Practical: "One of the fundamental importance of research is the use of - tombs architectural monuments in the present and at the same time of editing architectural plans, introduction of the Iran's monumental buildings to the world, and a way of advertising to attract tourism also an effort to restore the monumental buildings that can be provide a substantial amount of resources, images, photographs and maps which can be used for to archive that seeks to provide a list of monuments mausoleum and giving national registration number to them.With using this information as a result for natural and abnormal factors for Building if they are damaged or will be damaged can be repaired with this information. To identify this builings to others, published catalogs and books could be useful.

**In**. **the First chapter** –that**"The causes of existance the socio-historical cemetery monuments and the roots of its origin"** is the



**1.1. Məqbərələrdə formayaranmanın dini və simvolik aspektləri**

Bu bölmədə məqbərələrin dəyişik struktura malik olduğu müqəddəs məkan aydın şəkildə göstərir ki, onun rolu təkcə dəfn və xatirə yeri olmaqla məhdudlaşmırdı. Həqiqətdə, məqbərə orta əsr İslam cəmiyyətində mühim bir məqama malik idi və hətta ona "kütlə" və ya "camaat məzhəbi" adı da vermək olar. Axırda qeyd edilənlər müqəddəs və tanınmış Şiə şəxsiyyətlərinin məqbərələri ilə öz təsdiqini tapır. Lakin, məqbərənin içindəki əsil şəxsiyyəti tanımaq üçün bu məsələ tam olaraq təbii idi. O unudulmuş və sonra yeni bir mahiyyət və xüsusiyyətlə, hətta bütün bu bağlılıqlar saxta olsa belə dini bağlılıqları olan bir fərdi əvəz edir. Qeyri-dini məqbərələrin vəqfə meyl etməsi İslam ölkələrində məqbərələri əhatə edən müqəddəs bir ab-havanın münasib nişanəsidir. Əlbəttə, belə ab-hava müəyyən olaraq peyğəmbərin (s.a.v.) özündən rəvayət olunan hədislərlə təzadda idi. Çünki, o dəfn memarlığına olan nifrətini bildirmişdi.

**1.2. İran ərazisində piramidal və konusvari türbələrin yayılmasınınxronoloji qanunauyğunluqları və lokal variantları**

Bu bölmədə arasında - dairəvi və ya prizmatik həcmə malik qülləvari tipli türbələr olan dəfn qutuları «ossuarilərin»-piramidal və konusvari qurğuların yaranma problemi İran, Azərbaycan, Orta Asiya, Türkiyə ərazilərində səpələnmiş elmi ədəbiyyatda diametral əks olan iki əsas konsepsiyanı yaratması qeyd olunur.

Piramidal və konusvari örtmələrə İran, Azərbaycan, Türkiyə, Orta Asiya ərazilərində islam dövründəki xatirə tikililərində də rast gəlinir.

İslam insan sivilizasiyası tarixində əhəmiyyətli rola malik dünyəvi dinlərdəndir. Burada söhbət mədəni təsirlərdən deyil, yüzilliklər ərzində İran, Azərbaycan, Orta Asiya, Türkiyə ərazilərində yaranmış mədəni sintezdən gedir.

Analitik xülasəyə malik belə istiqamətlərdən biri İran və Azərbaycanın islam memarlığının formalaşmasından ibarətdir (119).

Xristian və islam dünyası memarlığı arasındakı prinsipial fərqlərə toxunarkən, qeyd etmək mümkündür ki, problem - Avropanın islam memarlığını qəbul etməməsindədir, baxmayaraq ki, islam dünyası möhtəşəm memarlıq abidələrinin yaradılması istiqamətində bir addımdır.

**1.3. İranın XIII əsrdən sonrakı dövr xatirə tikililəri.**

Orta əsr İslam məqbərələrinin formalarının müxtəlif olması labüd bir haldır. Bununla belə, qəbul etməliyik ki, bu arada fərqin dərəcəsi və ya həddi əsasən məscid və ya mədrəsədən daha azdır. Şübhəsiz bu o səbəbdəndir ki, İslam məqbərələrinin mütləq ölçüsü ənənəvi günbəzli kvadrat plan quruluşuna bağlılıqları ilə məhdudlaşırdı və planların bu şəkildə həllinin mahiyyəti hər cür yan genişlənmələrini inkar edirdi. Həyəti

olan məqbərələr istisna təşkil edirdilər. Deməli, məsələ yalnız hündürlüyün seçilməsi idi. Cüt günbəzlərdən istifadə edilməsi, hündür və dartılmış silindrlər, bir-birinə bağlı minarələr kiçildilmiş miqyasda və çoxlu başqa üsullar mövcud idi. Həqiqət budur ki, İslam ölkələrinin bir çoxunda mövcud olan üsulun zəruri ənənəvi mahiyyəti bu növü, yaxud stilistik təhvil və araşdırma baxımından təxminən mənasız bir mətləbə doğru sövq edir.

**1.4. İran ərazisindəki türbələrin tipoloji təsnifatı.**

Bu bölmədə İranda türbə memarlığı islam dövrünə aid olması qeyd olunur. İslam dini İran xalqının tarixində böyük rol oynamışdır. Biz islam dininin mədəni təsirini deyi, İranda bir neçə əsr ərzində yaranmış mədəniyyətin sintezini nəzərdə tuturuq.

İranın islam memarlığının formalaşması İran ərazisində mövcud olmuş özündən əvvəlki dinlərin hakim olduğu dövlətlərin ərazisində yaranmışdır (Əhəmənilər və Sasanilər dövrü).

Qeyd etmək lazımdır ki, özündən əvvəlki dinlərə mənsub olan memarlığın bütün ən yaxşı formalarını özündə ehtiva etmiş islam dünyasının memarlığı digər dinlərdən prinsipial fərqə malikdir.

İranın islam dövrü memarlığın inkişafına böyük təsir göstərmiş öz xüsusi şəraitinə malik idi. Yuxarıda qeyd edildiyi kimi, əvvəlki əsrlərin mədəni irsi, eyni zamanda digər xalqların mədəniyyətinin qarşılıqlı əlaqəsi də böyük təsirə malik olmuşdur.

**"QƏZVIN VILAYƏTININ XATIRƏ TİKİLİLƏRİNİN MEMARLIQ-PLANLAŞMA VƏ KOMPOZISIYA HƏLLƏRI"** adlı **II FƏSİLDƏ** Qəzvin vilayətinin xatirə tikilərinin memarlığının formalaşmasına tarixi - coğrafi, siyasi - iqtisadi amillərin təsiri və eyni zmanda araşdırılan bölgənin xatirə tikililərinin memarlıq-kompozisiya həllərinin formalaşmasına təsir edən amillər tədqiq edilir.

**2.1. Qəzvin vilayətinin xatirə tikililərinin memarlığının formalaşmasınatarixi–coğrafi, siyasi - iqtisadi amillərin təsiri.**

Qəzvin vilayəti İranın Şimal-Qərbində yerləşir. Qəzvinin ərazisi 1996-cı ildə Tehran vilayətindən ayrılmış və Zəncan vilayətindən alınan Takestan məntəqəsi ilə birlikdə Qəzvin vilayəti adlı yeni inzibati-siyasi bölgü yaradılmışdır. Bu vilayətin ərazisi təxminən 15820 $km^2$-dir. O, Mazandaran, Gilan, Həmədan, Zəncan, Mərkəzi Vilayət və Tehran vilayətləriylə həmsərhəddir. Bu vilayətin ərazisi İranın seysmik ərazilərindən hesab edilir. Bu vilayət, ölkənin son bölgüsünə əsasən, 5 şəhristana, 19 rayona, 23 şəhərə, 44 kəndistana və 1547 kəndə malikdir. Qəzvin, Takestan, Buyin-Zəhra, Abyek və Əlvənd bu vilayətın beş şəhristanıdır.

Qəzvin düzənliyində aparılmış arxeoloji axtarışlar və onların nəticələri göstərir ki, bu yerdə sakin olmuş insanlar hələ eramızdan əvvəl VII əsrrdə



го и последовательного изучения поминальных памятников данной области. Во время исследования были найдены способы построения графических чертежей данных памятников методом «золотого сечения».

**Практическое значение исследования состоит** в том, что основные выводы могут быть использованы в области пропаганды памятников в целях развития туристской индустрии в области, во время реставрационных работ, в деле паспортизации и инвентаризации, а также для издания каталогов, учебных пособий по памятникам данной типологической группы, а также для создания цифрового архива и т.д.

В первой главе диссертации, которая называется **«ИСТОРИКО-СОЦИАЛЬНЫЕ КОРНИ И ГЕНЕТИЧЕСКИЕ ОСНОВЫ ВОЗНИКНОВЕНИЯ МЕМОРИАЛЬНЫХ СООРУЖЕНИЙ НА ТЕРРИТОРИИ ИРАНА»**, исследуются культовые и символические аспекты формообразования мавзолеев, хронологические закономерности и локальные варианты распространения пирамидальных и конусообразных мавзолеев на территории Ирана, а также типологические основы их формирования.

Вторая глава диссертации посвящена вопросам исследования **«АРХИТЕКТУРНО-ПЛАНИРОВОЧНЫХ И КОМПОЗИЦИОННЫХ РЕШЕНИЙ МАВЗОЛЕЕВ ОБЛАСТИ ГАЗВИН»,** где рассматриваются историко-географические, политико-экономические факторы влияния на развитие архитектуры мавзолеев, а также архитектурно-композиционного решения мемориальных памятников в исследуемый период.

В третьей главе – **«МЕСТО АРХИТЕКТУРЫ МЕМОРИАЛЬНЫХ ПАМЯТНИКОВ В АРХИТЕКТУРЕ ИРАНА ОБЛАСТИ ГАЗВИН»** анализируются конструктивные особенности, техника строительства и архитектурный декор, использованный в исследуемых памятниках. В данной главе также рассматриваются значимость мемориальных соружений в истории архитектуры Ирана, а также состояние мавзолеев исследуемого периода и основные направления их охраны.

**ALI KHEIRI**

**Tombs of Qazvin Province in XI – XVII centuries**

**SUMMARY**




## АЛИ МЕДЖИД ОГЛУ ХЕИРИ
## МАВЗОЛЕИ ОБЛАСТИ КАЗВИН XI – XVII вв.
## РЕЗЮМЕ

**Основная цель исследования** изучение этапов и направлений развития, определение генетических корней возникновения архитектуры мавзолеев области Газвин XI – XVII вв. Также целью является пропаганда этих памятников, создание иллюстративных цифровых материалов для архивов. В работе дается широкое исследование архитектурно-композиционных особенностей памят-ников, находящихся на территории области, таких как – мавзолеи, имамзаде, ханега и т.д.

**Научная новизна исследования** состоит в том, что исследования архитектуры мавзолеев Газвин данного периода немногочисленны и данное исследование является первым в области комплексно-



oturaq həyatı keçirərək, əkinçiliklə məşğul olmuş, ibtidai sənaye növləri ilə tanış olmuş və müəyyən ictimai quruluşa malik olmuşlar. Yaşayış evləri, məbədlər, sənət emalatxanaları, bəzək əşyaları, heykəllər, taxıl anbarları, min illər bundan əvvəl bu yerlərin əhalisinin qədim sivilizasiyaya malik olduğundan xəbər verir.

Qəzvin vilayətinin tarixi şəhərlərindən olan Buyin Zəhrada yerləşən Xərəqanın cüt bürcləri, Məhəmmədabad, Avəc, Həcib karvansarayları; Səgzabadın tarixi yeri, Zağə təpəsi və qəbiristan təpəsi bu şəhristanın görkəmli yerləri sayılır.

### 2.2. Qəzvin vilayətinin xatirə tikililərinin memarlıq-kompozisiya həlləri.

İran memarlıq abidələriylə zəngin bir ölkədir. Burada memarlıq abidələrinin bütün tipoloji qrupları təmsil olunmuşdur. Bir neçə vilayətdən – ostandan ibarət olan İranın Qəzvin vilayəti xüsusilə gözəl memarlıq inciləri xatirə tikililərilə zəngindir. Həmin məqbərələrin yaranmasının tarixi kökləri qədimdir. İslamdan öncə qədim zərdüştlük ənənələrindən bəhrələnmiş memarlıq nümunələri olan məqbərələr ərazidə islam dininin zəfərindən sonra özünəməxsusluq əldə etmişdir. Bütün İran ərazisi, o cümlədən Qəzvin vilayəti üçün xatirə tikililəri təyinat baxımından bir neçə istiqamətdə inkişaf etmişdir: İmamzadələr və pirlər, xanəgahlar, türbələr.

2.2.1. *İmamzadələr və pirlər* adlanan yarımbölmədə Qəzvin vilayətinin Əbazər, İsmayıl, Sultan Seyyid Məhəmməd, Əli, İsmayıl Düdəhə, Səngərabadın Bibi Səkinə, Tarım Səfəli, Qasım Nəcməddin Bəkəndi, Vəli Yeddi imam, Abdullah, Saleh, Ələsgər, Əlaəddin, Avəcin İsmayıl, Mənsur kəndinin İmamzadələrinin memarlıq-kompozisiya həlləri tədqiq edilir.

*2.2.2. Xanəgahlar* adlanan yarımbölmədə Əli, Pir, Zibeydə xatun xanəgahları və Aminə xatun məscidi və xanəgahının memarlıq-kompozisiya həlləri tədqiq edilir.

*2.2.3. Xatirə tikililəri* adlanan yarımbölmədə Hüseyn, Abəklu daş, Qəzvin Əhməd Qəzali, Həmdullah Mustofi Qəzvini, Sultan Veys, yaxud Sultan Qeys, Şəhid Salis, Əbdülvəhhab Darüşşəfai Xərəqan Məqbərələrin, Səncidə Məscidinin məzar sərdabəsi, Şahkuh məzarlığındakı türbələrin, Səmiranat binalar kompleksinə Qasım İmamzadəsı, Sasan Qalası və ya kiçik məqbərə, Tarım Səfəlidə Sasan qalası Böyük məqbərələrin, Kafər və Yelə günbəzlərinin memarlıq-kompozisiya həlləri tədqiq edilir.

**“QƏZVİN VİLAYƏTİNİN XATİRƏ TİKİLİLƏRİNİN İRAN MEMARLIĞINDA YERİ”** adlı **III FƏSİLDƏ** Qəzvinin xatirə tikililərinin konstruktiv xüsusiyyətləri, inşaat texnikası və memarlıq dekoru analiz olunur. Bu fəsildə həmçinin, Qəzvinin xatirə tikililərinin İran memarliğında yeri və onların mühafizə istiqamətləri şərh edilir.

## 3.1. Qəzvinin xatirə tikililərinin konstruktiv xüsusiyyətləri, inşaat texnikası və memarlıq dekoru.

Memarlıq abidələrinin inşasının müxtəlif mərhələlərində memarlar tərəfindən istifadə olunan konstruksiya və inşaat materiallarının, eyni zamanda inşaat üsullarının tədqiqinə olan tələbat və bu məsələnin mühümlüyü memarlığın incəsənət və insanın istehsalat fəaliyyətinin nəticəsi kimi ikili təbiətindən irəli gəlir. Memarlıq tədqiqatçıları həmişə texniki məsələlərə, tikililərin memarlıq konstruksiyalarına böyük diqqət ayıraraq, planlaşma sistemi və kompozisiya həllinin binanın konstruktiv əsası ilə qırılmaz əlaqəsini qeyd etmişlər. İnşaatda baş vermiş texniki tərəqqi–yeni inşaat materialları, yeni üsul və vasitələr memarlıqda yeni kompozisiyanın yaranmasına təkan vermişdir.

Cənubi Azərbaycanın, xüsusilə Qəzvin vilayətinin xatirə tikililərinin memarlığının qonşu şərq ölkələrinin memarlığıyla oxşarlığı, qarşılıqlı əlaqəsi və bu zəngin memarlıq nümunələrinin İranın və qonşu ölkələrin memarlığında yeri məsələləri memarlıq tipologiyasının, arxitektonikanın və dekorun inkişafının bir neçə xarakterik nümunələrində izlənilir.

Cənubi Azərbaycanın xatirə tikililərində inşasında istifadə olunan əsas elementlər tağlar, tağbəndlər, günbəzlər idi. Dekorativ rol və məna yükü daşıyan bu elementlər eyni zamanda konstruktiv əhəmiyyətə də malik idilər. Bu səbəbdən müxtəlifliyinə baxmayaraq, onlar dəqiq hesabatla yerinə yetirilirdi. İslam dini tikililəri üçün iki və üç mərkəzli çatma tağlar və tağbəndlər, sferik və çatma günbəzlər daha xarakterik idi. Bundan əlavə qeyri–tipik günbəzlərə də rast gəlinirdi.

Bu cəhətdən Qəzvin vilayətinin xatirə tikililərinin tağ, tağbənd, günbəz, sütun, portal və daşdan olan sadə divar konstruksiyaları bütün tipoloji qruplarda vəhdət təşkil edərək mövcud memarlıq kompozisiyalarını formalaşdırır. Bu memarlığı yaradan ustad sənətkarların bacarığı sadə formalarla çox maraqlı ifadəli türbələrin maraqlı simasını yaratmağa nail olmuşlar. On əsrə bərabər bir zaman müddətində usta memarlar öz bacarıqlarını zənginləşdirməyə və sonda maraqlı memarlıq tikililəri yaratmağa nail olmuşlar. Bu monumental məqbərələr Cənubi Azərbaycanın, o cümlədən Qəzvin vilayətinin memarlığında öz layiqli yerini tutmuşdur

Abidənin memarlıq obrazının ayrılmaz tərkib hissəsi ola konstruksiya və inşaat texnikasının araşdırılması özlüyündə böyük əhəmiyyətə malikdir. Lakin bu məsələlərə daha diqqətli yanaşmağa digər bir səbəb vardır. Bu, bərpa əsnasında qədim konstruksiya və inşaat üsullarının müstəsna əhəmiyyətindən ibarətdir. Ayrı-ayrı konstruktiv elementlərin xarakterik xüsusiyyətlərini, daha geniş yayılmış metod və onların inşa üsullarını bilməmək çox vaxt abidənin savadsız şəkildə bərpa edilməsinə, abidənin










özəlliyinin qorunması kimi bərpanın əsas prinsipinin pozulmasına və hətta falsifikasiyaya belə gətirir. Bu məsələlərin öyrənilməsinin əhəmiyyəti memarlıq abidələrinin böyük dağıntıları və bərpa və konservasiya işlərinin aparılmasının vacibliyi səbəbindən qat-qat artır.

Cənubi Azərbaycanın monumental memarlığı üçün kərpic hörgünün tətbiqi əsasdır. Kərpic materialından tikililərin demək olar ki, bütün konstruktiv elementləri: divarları, örtmələri, tağ və tağbəndləri, günbəzləri qurulardı. Vilayətin orta əsr xatirə memarlığı-günbəzlər və bürclər, pirlər və xanəgahların inşasında dekorun rolunun artmasıyla səciyyələnir. Məscid və xatirə tikililərində istifadə edilmiş prolixrom hörgü və kaşılı dekor memarlığın emosional təsirini daha da yüksəldirdi.

Qəzvin vilayətinin xatirə tikililərinin memarlıq siması kompozisiyanın dinamikliyini yüksəldən vertikal nisbətlərin artmasıyla səciyyələnir. Xatirə tikililərinin xarici görünüşüşləri, onların işləmələri, memarlıq kompozisiyaları getdikcə təkmilləşir. Bu prinsip özünü eyni zamanda konstruktiv, dekorativ xüsusiyyətlərdə, giriş portallarının həllində də bariz şəkildə əks etdirir.

## 3.2. Qəzvinin xatirə tikililərinin İran memarliğında yeri və onların memarlığının mühafizə problemləri.

Cənubi Azərbaycanın, xüsusilə Qəzvin vilayətinin xatirə tikililərinin memarlığının qonşu şərq ölkələrinin memarlığıyla oxşarlığı, qarşılıqlı əlaqəsi və bu zəngin memarlıq nümunələrinin İranın və qonşu ölkələrin memarlığında yeri məsələləri memarlıq tipologiyasının, arxitektonikanın və dekorun inkişafının bir neçə xarakterik nümunələrində izlənilir.

Ön və Orta Şərqin geniş arealının memarlıqdakı qarşılıqlı əlaqəsi ortaq memarlıq və mədəniyyətin fonunda özünü göstərir. Xatirə tikililərinə xas olan memarlıq həlli həm Ön və Orta Şərq, Cənubi Qafqaz, eyni zamanda İran üçün xarakterikdir.

Qəzvin vilayətinin xatirə memarlığı böyük sürətlə inkişaf etmişdir. Artıq XII-XIII əsrlərdə artıq bu memarlıq Kafir Günəzı, Xərəqan türbələrini yaradaraq öz zirvəsinə çatmışdır.

Qəzvin vilayətinin memarlığı İranın digər bölgələrinin və eyni zamanda qonşu ölkələrin-Türkiyə, Şimali Azərbaycan, Orta Asiyanın memarlığıyla qarşılıqlı şəkildə bəhrələnərək inkişaf etmişdir. İranın Ön və Yaxın Şərq, Cənubi Qafqaz kimi geniş areala malik regionla memarlıq əlaqələri memarlıq və mədəniyyətin eyni köklərdən bəhrələndiyindən məlumat verir. İranın, o cümlədən Qəzvin vilayətinin xatirə memarlığı Ön və Yaxın Şərq, Cənubi Qafqazın eyni təyinatlı tikililərinin memarlığına tamlıqla uyğun gəlirdi.

VII əsrin sonlarından adı çəkilən bölgələrin memarlığı islam dininin

təsiri altında inkişaf etməyə başladı. Memarlıq formalarının inkişafındakı ardıcıllıq, yeni bədii konsepsiyaların yaradılması bir qədər qırılsa da, lakin sonralar IX əsrdən başlayaraq bütün şərqin, eyni zamanda tədqiq olunan bölgənin memarlığı özünün dayanıqlı yeni formalarını yaratmağa qadir oldu. Lakin xatirə tikililərinin memarlığında islamdan öncə kök salmış inanclar və ənənələr öz yerini tapdı.

Hal-hazırkı dövrdə müasir cəmiyyətin inkişafı şəraitində yarandığı dövrün iqtisadi və siyasi xüsusiyyətlərini əks edən memarlıq abidələrinin ilkin sosial ifadəsi bir çox cəhətdən dəyişmişdir. Bu gün memarlıq abidələri yeni məna yükü daşıyır, yeni əhəmiyyət kəsb edirlər.

Qəzvinin xatirə tikililərinin müasir vəziyyətini araşdırarkən onların böyük bir hissəsinin işlək, bəzilərinin yarıdağılı vəziyyətdə olduğu aşkar edildi. Bunun səbəbinin həmin abidələrin daşıdığı ilkin funksiyadan irəli gəldiyi bəllilənir. İslam dininin hökm sürdüyü ərazilərdə abidələrin böyük qisminin işlək vəziyyətdə olması məhz bununla şərtlənir - əhali tərəfindən gündəlik ziyarət yerlərinə çevrilmiş xanəgahlar, pirlər və türbələr dövlət tərəfindən nisbətən qayğıyla əhatə olunmuşdur. Bundan əlavə ayrı-ayrı şəxslərin xeyriyyə məqsədli daşıyan ianələri nəticəsində də xatirə tikililəri mühafizə edilir. Bununla belə qeyd etmək lazımdır ki, həmin fərdi ianələr nəticəsində həyata keçirilmiş tədbirlər - bərpa və ya təmir sistemsiz xarakter daşıyır, peşəkarlar tərəfindən həyata keçirilmir, bu da sonda abdidələrin simasının təhrif olunmasına gətirir. Eyni zamanda bəzi xatirə tikililərinin böyük yaşayış məntəqələrinin hüdudlarından kənarda yerləşməsi (Kafər günbəzi, Sultan Veys məqbərəsi) onların uçulub-dağılmasına, yararsız vəziyyətə düşməsinə səbəb olmuşdur. Tədqiqat zamanı araşdırılmış 18 imamzadədən dördünün (Vəli, Yeddi İmam, Abdullah və Əlaəddin imamzadələri) bərpaya, birinin (Kamal imamzadəsi) təmirə ehtiyacı olması müəyyənləşdirilmişdir. Ələsgər İmamzadəsində isə yarıdağılı vəziyyətdə olması səbəbindən konservasiya və ya rekonstruksiya işləri aparıla bilər. Qəzvin vilayətində yerləşən və tədqiqata daxil edilmiş dörd xanəgahın - Əli, Əminə xatın, Pir, Zübeydə xatın xanəgahlarının müasir vəziyyəti nisbətən qənaətbəxşdir. Abidələrin qənaətbəxş vəziyyətdə olması tədqiq olunmuş tübələrin bir hissəsinə də aid edilə bilər. Tədqiqat zamanı tərəfimizdən 14 məqbərədə aparılmış araşdırmalar zamanı müəyyənləşdirilmişdir ki, onlardan altı türbə normal vəziyyətdədir, üç türbə isə (Şahkuk məzarlığındakı türbələrdən biri, Yelə günbəzi və Kiçik məqbərə) yarıdağılı vəziyyətə gəlmişdir. Cənubi Azərbaycanın və xüsusilə Qəzvin vilayətinin xatirə tikilliərinin incisi hesab edilən, özündə islam dövründən əvvəlki inanclara mənsub cizgiləri daşıyan Xərəqan türbələrinin isə günbəzində, divar hörgüsündə bərpa işlərinin aparılması xüsusi diqqət














tələb edir. Qoşa Xərəqan türbələrinin tezliklə bərpa edilməsi Qəzvin vilayətinin xatirə tikililəri arasında ilk növbədə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər planına daxil edilməlidir. Bundan əlavə qeyd etmək lazımdır ki, tədqiq olunmuş xatirə tikililərinində kiçik çatlar, üzlük kərpiclərinin qopub – düşməsi, onların köhnəlməsi səbəbindən destruksiyaya uğraması və ovulması müşahidə edilir. Xatirə tikililərinin ərazilərinin abadlıq işlərinə böyük ehtiyacı vardır. Fasadlara vurulmuş lövhələr, əlavə barmaqlıqlar, dəyişdirilmiş və orijinaldan fərqlənən qapı və pəncərə cildləri və digər amillər xatirə tikililərinin kompleks şəkildə qavranılmasını və abidə funksiyasını daşıması təəsürratını azaldır.

Qeyd edilməlidir ki, müəllif tərəfindən Qəzvin vilayətinin müəllif tərəfindən tərəfindən tədqiq olunmuş 26 sayda xatirə tikilisinin rekonstruksiya layihəsi tərtib edilmişdir, o cümlədən: Əbazər, Ismayil, Əli, Dörd Ənbiya, Vəli, Abdulla, Əlaəddin, Ələsgər, Mənsur, Qasim, Kamal imamzadələri; Aminə Xatın, Şəkərnəbda Əli, Pir xanəgahları; Yeddi Sandiq – Yeddi İmam, Kafər Günbəz, Əhməd Qəzzali, Həmdullah Mustofi, Mucahidlər Başçisi, Hüseyn, Sultan Veys, Şəhid Salis, Haci Molla Abdulvahhab, Kiçik məqbərə, Böyük Sasan məqbərələri, Qoşa Xərəqan türbələri.

## TƏDQİQATIN ƏSAS NƏTİCƏLƏRİ

Beləliklə, tədqiqat işini aşağıdakı nəticələrlə yekunlaşdırmaq olar:

Mənbə və natur tədqiqatlar əsasında aparılan bu tədqiqat işi Qəzvin vilayətinin mavzoley və ziyarətgahlarının tanıdılması və tədqiqini tarixi və memarlıq baxımından araşdırma və tənqid obyektinə çevirmiş, memarlıq şəkilləri və xəritələri təqdim olunmuşdur. Eləcə də, tədqiqat prosesində qədim xəritələri yenidən çəkməklə, onların optimallaşdırılması həyata keçirilmişdir.

Ümumiyyətlə, mavzoley bir və ya bir neçə dini, siyasi və görkəmli şəxsiyyətin dəfn olunduğu yerə və məkana deyilir. Bu tip binaları dini ziyarətgah və qeyri dini olaraq iki qismə bölmək olar. Bu kimi şəxsiyyətlərin, xüsusilə də imamzadələrin avtobioqrafiyasını və onların kimliyini tapıb müəyyən etmək olduqca çox çətin və bəzi vaxtlar qeyri-mümkündür. Biz bunun səbəblərini aşağıdakı kimi göstərə bilərik:

1.İran müxtəlif mədəniyyətlərin qovuşduğu məkan və dünyanın ilk və ən böyük sivilizasiya ocaqlarındandır və memarlıq abidələriylə zəngin bir ölkədir. Burada memarlıq abidələrinin bütün tipoloji qrupları təmsil olunmuşdur. Qəzvin vilayəti dünyada tarixi-memarlıq tikililərinin sayına görə dünyada ikinci, İran ərazisində isə birinci bölgədir. Təyinatına görə eyni, lakin öz bədii simasına görə müxtəlif olan İranın xatirə abidələri

özünəməxsusluğu ilə fərqlənir. Həmin türbələrin yaranmasının tarixi kökləri qədimdir. Abidələrin bu qrupu təkcə bu tip memarlıq abidələrinin inkişafındakı varislik cizgilərini izləməyə deyil, eyni zamanda getdikcə ənənəyə çevrilmiş bəzi kompozisiya üsullarının və memarlıq formalarının dayanıqlığını qeyd etməyə imkan verir. Bundan əlavə, bu memarlıq üzərində inşaat texnikasının inkişafını, bu və ya digər memarlıq üsullarının bir-birini əvəz etməsinin ardıcıllığını izləmək mümkündür.

2.İranın İslam memarlığının formalaşmasıİran ərazisində mövcud olmuş özündən əvvəlki dinlərin əsasında yaranmışdır (Əhəmənilər və Sasanilər dövrü) və həmin dinlərə mənsub olan memarlığın bütün ən yaxşı formalarını (Dörd Ənbiya) özündə ehtiva etmişdir və İslam dininin zəfərindən sonra isə (çahartağ tipli Pir xanəgahı) özünəməxsusluğunu təsdiqləmişdir. İranın İslam memarlığının inkişafı və formalaşması xüsusilə xatirə tikililərinin memarlığında öz əksini tapmışdır.

3.Qəzvin vilayətinin türbələri xatirə memarlığının xarakteri haqqındakı təsəvvürləri köklü surətdə genişləndirdi. Bölgədə qalan çoxsaylı türbələrin tarixcə ən qədimi XI əsrin ikinci yarısına aiddir. Bu memarlıq tipinin ən monumental nümunələri isə XII əsrin ikinci yarısı - XIV əsrin birinci yarısında ucaldılmışdır.

4.Qəzvin vilayətinin memarlığının formalaşmasına tarixi-coğrafi, siyasi-iqtisadi amillərin təsiri böyük olmuşdur. Fərqli topoqrafik struktur vilayətin coğrafi ərazilərində müxtəlif iqlim şəraiti yaratmışdır. Sənaye-Tarix və tarixi-coğrafiya kitablarında göstərildiyi kimi, Qəzvin vilayətində sənayenin min illərlə tarixi vardır. Arxeoloji araşdırmalar bu ərazinin sakinlərinin yüksək sənətkarlığa malik olduğunu göstərir. Tarixi rəvayətlərə görə, tarixi Qəzvin şəhərinin ilk daşını Sasani padşahı Birinci Şapur qoymuş, burada qalalar və istehkamlar tikdirmişdir.

5.Bölgənin türbələrinin böyük əksəriyyəti, Sultan Veys və Abaklu türbələri istisna olmaqla, daşdan olan memarlıq detallarının əlavəsiylə bişmiş kərpicdən hörülmüşdür.

6.İran və Azərbaycanın bir qrup mavzoleylərinin memarlıq – kompozisiya həllinin Xorasan, digər qrupun isə Əhlət və Ərzurumun mavzoleylərilə oxşar tipoloji cəhətləri mövcuddur. Bir sıra alimlər eyni zamanda qeyd edirdilər ki, İran və Azərbaycan mavzoleyləri türk memarlarının yaradıcılığına müəyyən təsir göstərmişdir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bütün xatirə tikililərinin ümumi cizgisi, qeyd edildiyi kimi, onlardakı vahid kompozisiya düşüncəsi, xüsusilə həcmin parlaq ifadə edilmiş iki bölümlüyü idi. Alt hissə konusvari örtmə ilə tamamlanmış silindrik və ya çoxüzlü baraban həcmdən ibarət idi.

7.Qəzvin vilayətinin xatirə tikililəri müxtəlifdir. Bunların bəziləri










kompleks xarakteri daşıyır, yəni bir tikilinin simasında imamzadə, pir, xanəgah və məscid tipi cəmlənmişdir. Xüsusilə Pir xanəgahlarını, İsmayıl, Qasım, Vəli imamzadələrini, dörd Ənbiya, 7 Sandıq, Əminə xatın, çoxsaylı digər türbə və məqbərələri qeyd etmək lazımdır.

8.Qəzvin vilayətinin xatirə tikililərinin memarlıq siması kompozisiyanın dinamikliyini yüksəldən vertikal nisbətlərin artmasıyla səciyyələnmişdir. Xatirə tikililərinin xarici siması, onların işləmələri, memarlıq kompozisiyaları getdikcə təkmilləşmişdir. Bu prinsip özünü eyni zamanda konstruktiv, dekorativ xüsusiyyətlərdə, giriş portallarının həllində də bariz şəkildə əks etdirmişir. Vilayətin orta əsr xatirə memarlığınn inşasında dekorun rolunun artmasıyla səciyyələnmişdir. Xatirə tikililərində istifadə edilmiş prolixrom hörgü və kaşılı dekor memarlığın emosional təsirini daha da yüksəltmişdir. Qeyd etmək lazımdır ki, bölgənin abidələri nin hər birində 30-dan artıq naxış növü istifadə olunduğu üçün onu el dilində haqlı olaraq «kərpic muzeyi» adlandırırlar.

9.Qəzvin vilayətinin monumental memarlığı üçün kərpic hörgünün tətbiqi xarakterikdir. Kərpic materialından tikililərin demək olar ki, bütün konstruktiv elementləri: divarları, örtmələri, tağ və tağbəndləri, günbəzləri qurulmuşdur. Dekorativ rol və məna yükü daşıyan bu elementlər eyni zamanda konstruktiv əhəmiyyətə də malik idilər. Bu səbəbdən müxtəlifliyinə baxmayaraq, onlar dəqiq hesabatla yerinə yetirilirdi. İslam dini tikililəri üçün iki və üç mərkəzli çatma tağlar və tağbəndlər, sferik və çatma günbəzlər daha xarakterik idi. İranın ilk iki qabıqlı tikililəri məhz qoşa Xərəqan türbələridir.

10.Türbələrin günbəzləri müxtəlif profillərə və cizgilərə malikdir: piramidal, çadırşəkilli, sferik konik, yastı, sferik, konusşəkilli, silindrik və s. Konusvari örtməli Kamal və Abdulla türbələri Qarabağ ərazisindəki Mirəli, piramidal örtməliləri isə Naxçıvan və Arranın digər türbələriylə oxşardır. Türbələrin interyerləri maraqlı həll tapmışdır: tapqırı tağlara malik tağbəndlər, tağlar, tağçalar, uzunsov çatmatağlar, müxtəlif profillər, müstəvi tağlar və s.

11.İranda hər bir dövr özünün inşaat və üzlük materiallarına malikdir. Artıq qədim dövrlər üçün bu, çiy kərpic, daş və keramik tavalardır. Sonrakı Əhəmənilər və Sasanilər dövrləri memarlıq dekorunda yonma və tökmə gəcin tətbiqiylə xarakterizə edilir. Tikililərdə bloklarla, iki vəüç sıralı və aralı tavalarla bişmiş kərpicdən relyefli düzülüş divara bədii faktura verirdi - Sultan Seyid Mahmud və Əminə xatın İmamzadələri, Mücdəhid vəAbaklu məqbərə türbələri. İran ərazisindəki dini və xatirə tikililərində memarlıq dekorunun klassik nümunələri aşağıdakılardır: Qasım, Bibi Səkinə, Əminə xatın İmamzadələri, Abaklu məqbərə, Əhməd Həzani, Kiçik və Böyük

məzari, Kabus qülləsi, və s.

12.Qəzvin vilayətinin memarlığı İranın digər bölgələrinin və eyni zamanda qonşu ölkələrin-Türkiyə, Şimali Azərbaycan, Orta Asiyanın memarlığıyla qarşılıqlı şəkildə bəhrələnərək inkişaf etmişdir. Qadına ehtiram olaraq, qonşu dövlətlərdə olduğu kimi (Möminə Xatın-Naxçıvan; Bibi-heybət, Rəhimə xanım-Bakı; Bibixanım - Səmərqənd və s.), xatirə tikilərinə «xatın», «bibi» adlarının verilməsi xarakterikdir - Bibi Səkinə, Əminə xatın İmamzadələri. İranın Ön və Yaxın Şərq, Cənubi Qafqaz kimi geniş areala malik regionla memarlıq əlaqələri memarlıq və mədəniyyətin eyni köklərdən bəhrələndiyindən məlumat verir. İranın, o cümlədən Qəzvin vilayətinin xatirə memarlığı Ön və Yaxın Şərq, Cənubi Qafqazın eyni təyinatlı tikililərinin memarlığına tamlıqla uyğun gəlir.

13. Qəzvin vilayətinin xatirə tikililərinin memarlıq siması kompozisiyanın dinamikliyini yüksəldən vertikal nisbətlərin artmasıyla səciyyələnir. Xatirə tikililərinin xarici görünüşüşləri, onların işləmələri, memarlıq kompozisiyaları getdikcə təkmilləşir. Bu prinsip özünü eyni zamanda konstruktiv, dekorativ xüsusiyyətlərdə, giriş portallarının həllində də bariz şəkildə əks etdirir.

## YEKUN

Qəzvin vilayətinin xatirə memarlığı böyük sürətlə inkişaf etmişdir. Artıq XII-XIII əsrlərdə artıq bu memarlıq Kafir Günəzı, Xərəqan türbələrini yaradaraq öz zirvəsinə çatmışdır.

İranın və şərq ölkələrinin tarixi keçmişi çoxsaylı memarlıq abidələrində öz əksini tapmış bölgələrin yaxın əlaqələrindən məlumat verir. İranın maddimədəniyyət abidələri Orta Asiya, Azərbaycan, Türkiyənin memarlıq abidələrinə nəinki memarlıq–planlaşma cəhətdən, eyni zamanda inşaat texnikası, inşaat materialları və konstruksiyaları, inşaat işlərinin istehsalının təşkili baxımından da çox yaxındır.

İran ərazisində Qəzvin vilayəti məhz xatirə tikililəriylə zəngin olan bir bölgədir. Bu ərazilərdə inşaat texnikası və materiallarına görə qonşu bölgələrin memarlıq nümunələrinə, xüsusilə də xatirə tikililərinə bir çox əlamətlərinə görə yaxın olan memarlıq abidələri qeydə alınmışdır.

Təkrarsız memarlığa malik tədqiq olunan bölgənin xatirə təyinatlı tikililəri - günbəzlər və bürclər, pirlər və xanəgahların tanıdılmasına, turist marşrutlarına daxil edilməsinə, ölkənin itirilmək təhlükəsi olan memarlıq abidələrinin siyahısına salınmasına ehtiyacı vardır. Bu istiqamətdə xüsusi dövlət proqramlarının işlənilməsi zəruridir. Əhali arasında maarifləndirmə işlərinin aparılması da böyük aktuallıq təşkil edir.










Tarixi-memarlıq irsinin təbliği məqsədilə abidələri nəinki bərpa etmək, onları eyni zamanda muzeylər kimi istifadə etmək lazımdır. Bu muzeylər yalnız həmin abidəni deyil, həmin abidənin yerləşdiyi bölgənin də tarix və mədəniyyətinin müxtəlif mərhələlərini təblig etməlidir. Bunun üçün aşağıdakı ilkin tədbirlər aparılmışdır:

- Qəzvindəki türbələrin təsnifatının tərtibi;
- Qəzvindəki abidələrin, o cümlədən türbələrin tamlıqla göstərilməsi şərtilə, «Google-earth» xəritənin tərtibi;
- bölgəyə məxsus bütün xatirə tikililərinin həndəsi quruluşlarının «qızıl nisbətləri»nin müəyyənləşdirilməsi;
- xatirə tikililərinin qorunma səviyyəsinin araşdırılması və təsnifatlaşdırılması.
- bəzi abidələr üzrə bərpa layihələrinin işlənməsi;
- bölgəyə məxsus bütün xatirə tikililərinin rekonstruktiv 3D modellərinin tərtib edilməsi.
- Qəzvindəki türbələrin "qızıl həndəsə tənasübünün" təyin edilməsi.

Tövsiyyə edilir:

- beynəlxalq bərpa normalarına istinad edərək türbələrin bərpa və konservasiya layihələrinin tərtibi və həyata keçirilməsi;
- abidələrin üzərində onun inşa tarixi, vaxtilə kimin sifarişi ilə inşa olunması və ya memarı haqqında xatirə lövhəsinin vurulması,
- muzeyləşdirmə və ya uyğunlaşdırma layihələrinin tərtibi;
- abidələrin inventarlaşmasının rəqəmasal modelini yaradılması və bununla da dünya memarlığına inteqrasiyanın təmin edilməsi;

Müasir dövrdə YUNESKO tarixi şəhərlərin memarlıq irsinin mühafizəsi üzrə bir sıra mühüm tədbirlər keçirir, abidələrin dəyərləndirilməsinə, ümumbəşəri mədəniyyət irsinə daxil edilməsi üzrə böyük işlər aparır. Məsələn, İranın gözəl memarlıq nümunələrindən olan Sultaniyyədəki Olcaytu Xodabəndə türbəsi dünya irsi siyahısına daxil edilmişdir. Bu istiqamətdə işlərin genişləndirilməsi İran İslam respublikasının da marağındadır və digər möhtəşəm abidələrin, o cümlədən Qəzvin vilayətindəki qoşa Xərəqan türbələrinin həmin mədəni irs siyahısına daxil edilməsi arzu olunandır.

## İŞİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

Hazırki tədqiqat işi XI – XVII əsrlər Qəzvin vilayətinin türbələrinin memarlığı xüsusiyyətlərini işiqlandırır. Tədqiqatımızdan əldə olunmuş nəticə aşağıdakı sahələrdə istifadə olunmuşdur:

1. Zəncan vilayətinin türbələri. Dərs vəsaiti. İslam Azad Universitetinin *şəhr-e-Qods* filialı. 2012-ci il. (248.səh)

2. Qəzvinin Abyek şəhristanının Abyek rayonunun Şəkərnab kəndi yaxınlığında Əli İmamzadəsinin bərpa-rekonstruksiya layihəsi. 2011-2013-ci illər.

3. İslam Azad Universitetinin *Şəhr-e-Qods* filialında və İslam Azad Universitetinin *Səfadəşt* filialında, şəhərsalma və memarlıq fakultəsinin bakalavr və magistr pillələrində dərs vəsaiti kimi istifadə oluna bilər.

**DİSSERTASİYA İŞİNİN MÖVZUSU ÜZRƏ AŞAĞIDAKI ƏSƏRLƏR ÇAP OLUNMUŞDUR:**

1. Xeiri Ə. Simnan vilayətinin türbələri (dərs vəsaiti). Tehran: İslam Azad Universitetinin Roudehen filialında, 2005, s.273.
2. Xeiri Ə. Zəncan vilayətinin türbələri (dərs vəsaiti).Tehran: İslam Azad Universitetinin *Şəhr-e-Qods* filialında, 2012, s.248.
3. Xeiri Ə. History of the world`s Architecture (dərs vəsaiti). Tehran: İslam Azad Universitetinin Roudehen filialında, ISBN: 978-964-450-642-0,2007, s.226.
4. Xeiri Ə. Əbazər Dəstcerdolya imamzadəsi//Azərbaycan Memarliq və İnşaat Universitetinini Elmi əsələri, 2011, No1, s.35-39.
5. Xeiri Ə. Qəzvində sultanVeys məqbərəsi//Azərbaycan Memarliq və İnşaat Universitetinini Elmi əsələri, 2010, No1, s.130-134.
6. Xeiri Əli. İranin Qəzvin vilayətinin Xərəqan mavzoleyləri // Azərbaycan “Urbanizm”/ Memarliq və İnşaat Universitetinin elmi –praktiki jurnalı, 2011, No14, p.4.
7. Xeiri Ə.Qəzvini Şəhzadə hüseyn məqbərəsi, Doktorantların və gənc tədqiqatçıların “XV respublika elmi konfransı” Azərbaycan: Bakı, 2010, 5 səh.
8. Xeiri Ə. Iranian-Islamic arch in the Al-kashi’s key to arithmetic. Conference on history of Islamic and Iranian culture and civilization.Tehran: Tarbiat Modares University, 2009, p.56-65
9. Xeiri Ə.Importance of cemetery monuments in shaping urban space. National conference on urban design & IranianIslamic architecture (nciaud). International symposium on advances in since & technology (SASTech), Mashhad, 2013, p.144-151
10. Xeiri Ə. Crisis managment in historic mausoleums. National sustainable architecture and urban development confrance, Iran: Bukan, p.5



11. Xeiri Ə. Maintain the shrine buildings preserve cultural identity. Consultative for better architecture, Tehran: Savadkoh, 2012.
12. Xeiri Ə.The Importance and Role of the Historic Pilgrimage Monuments in Urban Spaces Shaping in Iran. 13th Annual International Conference on History & Archaeology: From Ancient to Modern, 29-30 June & 1-2 July 2015, Athens, Greece, 2015, 9.səh

